# AZƏRBAYCAN VETERANI

AZƏRBAYCAN VETERANLAR TƏŞKİLATI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

03 (98) 20 fevral 2018-ci il

İctimai-siyasi qəzet


# İnkişaf edən, güclənən, dünyanın lider ölkələri sırasında layiqli yer tutan Azərbaycanın sınaqlardan çıxmış lideri - İlham Heydər oğlu Əliyev ölkə veteranlarının layiqli namizədidir

## İlham Əliyevin Türkiyənin energetika və təbii sərvətlər naziri ilə görüşü olub

Prezident İlham Əliyev Türkiyənin energetika və təbii sərvətlər naziri Berat Albayrak ilə görüşüb.

Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Azərbaycanın və Türkiyənin TANAP, TAP, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi iri-miqyaslı layihələri birlikdə uğurla həyata keçirdikləri qeyd olundu.

Türkiyənin enerji və təbii sərvətlər naziri Berat Albayrak Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev ötən ilin sentyabrında Bakıda "Əsrin müqaviləsi"nin müddətinin uzadılması mərasimində Berat Albayrak ilə görüşünü xatırladı və TANAP layihəsinin icrasının artıq yekunlaşmaqda olduğunu vurğuladı. Dövlətimizin başçısı tezliklə "Şahdəniz-2" yatağından qazın hasil olunmasına və borulara ötürülməsinə başlanılacağını bildirdi.

Nazir Berat Albayrak "Əsrin müqaviləsi"nin müddətinin uzadılmasının əhəmiyyətini xüsusi vurğulayaraq, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü iclasının önəmini qeyd etdi. O, ötən ay TANAP layihəsinin icrası çərçivəsində sınaq işlərinə başlanıldığını dedi.

Dövlət başçısı Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.



## İlham Əliyevin İtaliyanın iqtisadi inkişaf nazirinin müavini ilə görüşü olub

Prezident İlham Əliyevin İtaliyanın iqtisadi inkişaf nazirinin müavini İvan Skalfarotto ilə görüşü olub.

İvan Skalfarotto İtaliyanın Baş naziri Paolo Centiloninin salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəsinin Cənub Qaz Dəhlizində iştirakından və bu tədbirdə təmsil olunmasından məmnunluğunu bildirdi. İvan Skalfarotto ölkələrimiz arasında əməkdaşlığın digər sahələrdə də uğurla inkişaf etdiyini dedi, Azərbaycanın İtaliyaya sərmayə yatırmasını dəstəklədiklərini vurğuladı. O, Azərbaycan-İtaliya əməkdaşlığının digər sahələrdə də inkişafı üçün səylərin gücləndirilməsinin önəmini ifadə etdi.



Ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın energetika, ticarət və digər sahələri əhatə etdiyini deyən Prezident İlham Əliyev İtaliya şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdiklərini bildirdi. Dövlətimizin başçısı vurğuladı ki, Cənub Qaz Dəhlizi ölkələrimizi birləşdirən önəmli layihədir və gələcək illərdə əməkdaşlığımızın inkişafında vacib rol oynayacaq. Prezident İlham Əliyev qeyd etdi ki, İtaliya qaz sahəsində Azərbaycanın ən böyük ixrac bazarlarından biri olacaq.

Dövlət başçısı Baş nazir Paolo Centiloninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İtaliyanın Baş nazirinə çatdırmağı xahiş etdi.


Prezident İlham Əliyev veteranlara dövlət qayğısı siyasətinin müasir mərhələdə inkişafı üçün çox böyük işlər görüb Səh-2

Respublika Veteranlar Təşkilatının sədrinə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" təqdim olunub Səh-3

Respublika Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynovun 95 illik yubileyi qeyd edilib Səh-4

# Prezident İlham Əliyev veteranlara dövlət qayğısı siyasətinin müasir mərhələdə inkişafı üçün çox böyük işlər görüb




Fevralın 14-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə bağlı ümumi yığıncaq təşkil edilib.

Əvvəlcə Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Respublika Veteranlar Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov ölkəmizdə keçirilən bütün seçkilərdə veteranların fəal iştirak etdiklərini bildirib. O, aprelin 11-də keçiriləcək prezident seçkilərində də bu fəallığın yüksək səviyyədə olacağına əminliyini ifadə edib.

Tofiq Ağahüseynov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qazanılan uğurlardan danışıb, Azərbaycanın dünyanın iqtisadi cəhətdən sürətlə inkişaf edən, mütərəqqi, sivil dəyərlərə malik ölkə kimi tanındığını vurğulayıb. Bütün sahələrdə ildən-ilə inkişaf edən Azərbaycanın hərbi qüdrəti də artır, ordumuz güclənir və bu, bizdə erməni işğalında olan torpaqlarımızın azad ediləcəyinə böyük inam yaradır. Xalqın rifahının və sosial vəziyyətinin yaxşılaşması, o cümlədən veteranlara göstərilən qayğı və diqqətin getdikcə yüksəlməsi, eləcə də digər istiqamətlərdə qazanılan nailiyyətlər bizi növbəti seçkilərdə yenə də İlham Əliyevə səs verməyə sövq edir.

Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov seçkilərlə əlaqədar qurumun qarşısında duran vəzifələrdən, veteranların bu işdə daha yüksək fəallıq göstərmələrinin əhəmiyyətindən danışıb. O, seçkilərdə iştirak və təbliğat işinin təşkili ilə bağlı məsələlərdə yerli təşkilatlara lazımi köməyin göstərilməsinin, hamını səsvermə günü seçki məntəqələrinə gedərək vətəndaşlıq borcunu yerinə yetirməsinin vacibliyini qeyd edib. Diqqətə çatdırıb ki, Prezident İlham Əliyev veteranlara dövlət qayğısı siyasətinin müasir mərhələdə inkişafı üçün çox böyük işlər görüb. Onun imzaladığı dövlət proqramları və sərəncamlar əsasında xüsusilə müharibə veteranları hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Veteranlara prezident təqaüdünün verilməsi, hər il 9 May - Qələbə Günü ərəfəsində MDB məkanında ən yüksək birdəfəlik yardım edilməsi, fəal veteranların orden və medallara layiq görülməsi və həyata keçirilən başqa tədbirlər bunun parlaq sübutlarıdır. İlham Əliyev görkəmli dövlət adamı, ictimai xadimdir. Prezidentin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ən yüksək kürsülərdən Azərbaycanın ədalətli və obyektiv mövqeyini qətiyyətlə səsləndirməsi biz veteranları, Vətənin azadlığı uğrunda həlak olmuş əsgər və zabitlərin ailələrini hədsiz fərəhləndirir və torpaqlarımızın tezliklə işğaldan azad olunacağına inamımızı daha da artırır.




Veteranların layiqli namizədi olan Prezident İlham Əliyevin genişmiqyaslı fəaliyyəti və mühüm xidmətləri ilə bütün xalqımızın səsini qazanmağa haqqı çatdığını vurğulayan C.Xəlilov səsvermə günü veteranların yenidən öz seçimlərinə sadiq qalacaqlarına əminliyini bildirib. O, əmin olduğunu bildirib ki, veteranlar aprelin 11-də layiqli namizəd İlham Əliyevə səs verəcəklər.



Tədbirdə "Azərbaycan Qarabağ Əlilləri və Şəhid Ailələri" İctimai Birliyinin sədri Mehdi Mehdiyev, "Çernobıl Əlilləri İttifaqı" İctimai Birliyinin sədri Mirhəsən Həsənov, Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyinin sədri Füzuli Rzaquliyev, Respublika Veteranlar Təşkilatının Rəyasət Heyətinin üzvü, professor Bəhram Zahidov və digər çıxış edənlər də veteranların aprelin 11-də hamılıqla İlham Əliyevə - davamlı inkişafa, sabitliyə və Azərbaycanın xoşbəxt gələcəyinə səs verəcəklərini qeyd edib və hamını səsvermə günü fəal olmağa çağırıblar.

Sonda Azərbaycan müharibə veteranları təşkilatlarının ümumi yığıncağının iştirakçıları adından Azərbaycan veteranlarına müraciət qəbul edilib.

# Azərbaycan veteran Təşkilatlarının ümumi yığıncağının BƏYANATI

Əziz və hörmətli veteranlar!

Müasir dövlətimizin yaradıcısı ulu öndər Heydər Əliyevin layiqli davamçısı olan İlham Əliyevin apardığı düşünülmüş və məqsədyönlü siyasət nəticəsində, Azərbaycanın iqtisadiyyatı ildən-ilə güclənir, xalqın rifahı və sosial durumu yaxşılaşır, ölkənin hərbi qüdrəti artır. Səriştəli rəhbərlik sayəsində milli adət və ənənələrimiz qorunub saxlanılmaqla yanaşı, Azərbaycan müasir dünyaya açılır, onun mütərəqqi dəyərlərini mənimsəyir. Hazırda bir çox sahələrdə Avropanın sivil ölkələrindən geri qalmayan, inteqrasiya, tərəqqi yolu ilə inamla irəliləyən Azərbaycan dünyanın inkişaf etmiş dövlətləri arasında layiqli yer tutur. Bu gün beynəlxalq elmi, ictimai-siyasi tədbirlərin, festival, müsabiqə və idman yarışlarının mərkəzinə çevrilmiş Azərbaycan Respublikası İslam Əməkdaşlıq Təşkilatının, eyni zamanda Avropa Şurasının üzvü olmaqla, Şərqlə Qərb sivilizasiyası, müxtəlif dinlər və mədəniyyətlər arasında bir körpü rolunu oynayır.

İlham Əliyev əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan veteranlara dövlət qayğısı siyasətinin Azərbaycanda müasir mərhələdə daha da inkişaf etdirilməsinə nail olmuşdur. Belə ki, Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ildə qəbul edilən "Veteranlar haqqında" Azərbaycan Respublikasının Qanununda əksini tapmış həmin qayğılar, Prezident olduğu dövrdə daha da genişləndirilmişdir. Müntəzəm olaraq imzalanan dövlət proqramları və Sərəncamlar əsasında müharibə veteranlarının mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onlara prezident təqaüdünün verilməsi, hər il 9 May ərəfəsində MDB məkanında ən yüksək birdəfəlik yardım edilməsi, veteran fəallarının orden və medallara layiq görülməsi və başqa xeyirxah işlər bunun parlaq sübutlardır.

İlham Əliyev idarəçilik təfəkkürü və obyektivliyi ilə fərqlənən görkəmli dövlət adamı, xalqlar arasında dostluq və qardaşlığın qorunmasına mühüm əhəmiyyət verən ictimai xadimdir. İkinci dünya müharibəsində iştirak etmiş bütün xalqların xidməti, eləcə də, baş vermiş hadisələrin qiymətləndirilməsi ilə bağlı onun ortaya qoyduğu obyektiv, dəyişməz mövqe dünyanın digər liderlər üçün əsl nümunə sayıla bilər. Təəssüf ki, həmin müharibədə ümumi vətənin azadlığı uğrunda Qələbəyə mühüm töhfələr vermiş Azərbaycan bu gün torpaqlarını işğal altında saxlayan erməni faşizmi ilə mübarizədə eyni münasibəti görmür. Ancaq bu biganəliklərə, ikili standartlara baxmayaraq, möhtərəm prezident münaqişə ilə bağlı ən yüksək kürsülərdən Azərbaycanın ədalətli və obyektiv mövqeni qətiyyətlə səsləndirir. Azərbaycanın müharibə və arxa cəbhə veteranları, Vətənin azadlığı uğrunda həlak olmuş əsgər və zabitlərin ailələri bundan qürur və fərəh duyurlar. Onlar həm böyük qayğı və diqqətə, həm də milli mənafelərin ardıcıl və inamlı müdafiəsinə görə dövlət başçısına öz təşəkkürlərini bildirirlər.

Möhtərəm Prezidentimiz münaqişənin Azərbaycanın ərazi bütövlüyünün təminatı və Dağlıq Qarabağda suveren hüquqlarının bərpası üçün bütün zəruri siyasi və diplomatik addımları atır.

Respublika veteranları dövlətimizin qarşısında duran taleyüklü məsələlərin həlli üçün özünü doğrultmuş, xalqımız tərəfindən dəstəklənən siyasətin davam etdirilməsini vacib bilirlər. Məhz buna görə biz, respublikamızın bütün bölgələrindəki veteran təşkilatlarını təmsil edən bir təşkilat olaraq veteranları 11 aprel 2018-ci ildə hamılıqla yerlərdə seçkiqabağı tədbirlərdə fəal iştirak və düzgün seçim edib, İlham Heydər oğlu Əliyevə - davamlı inkişafa, sabitliyə və Azərbaycanın xoşbəxt gələcəyinə səs verməyə çağırırıq. İnkişaf edən, güclənən, dünyanın lider ölkələri sırasında layiqli yer tutan Azərbaycanın sınaqlardan çıxmış lideri - İlham Heydər oğlu Əliyev ölkə veteranlarının layiqli namizədidir. Bunu hər birimiz seçki günü öz səsimizlə bir daha doğruldaq!

-Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı,
-Azərbaycan Qarabağ müharibəsi, əlilləri, veteranları və şəhid ailələri ictimai birliyi,
-Çernobıl Əlilləri İttifaqı ictimai birliyi,
-Əfqanıstan veteranları ictimai birliyi,
-Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyi,
-Azərbaycan Respublikası Beynəlmiləlçi əlil döyüşçülər fondu.

*Azərbaycan veteran təşkilatlarının ümumi yığıncağının iştirakçıları adından*

# Respublika Veteranlar Təşkilatının sədrinə “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” təqdim olunub



Böyük Vətən müharibəsi veteranı, Respublika Veteranlar Təşkilatının sədri, general-polkovnik Tofiq Ağahüseynovun 95 illik yubileyi ilə əlaqədar dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə təltif edildiyi “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu”nun fevralın 1-də yubilyara təqdim olunması mərasimi keçirilib.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Respublika Veteranlar Təşkilatının rəhbərliyi, veteranlar, ictimaiyyətin nümayəndələri iştirak ediblər.



Prezidentin köməkçisi Əli Həsənov “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu”nu Respublika Veteranlar Təşkilatının sədri Tofiq Ağahüseynova təqdim edib.



Mərasimdə çıxış edən Əli Həsənov Azərbaycan dövlətinin veteranlara, ölkəmizdə veteran hərəkatının inkişafına daim yüksək diqqət və qayğı göstərdiyini vurğulayıb. Bildirib ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu bu siyasət hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Ümummilli lider Heydər Əliyevin ənənəsinə sadiq qalan dövlətimizin başçısı İlham Əliyev hər il 9 May – Qələbə Gününü veteranlarla birlikdə qeyd edir, onlarla görüşür, qayğıları ilə maraqlanır.



General-polkovnik Tofiq Ağahüseynovun Azərbaycanda ordu quruculuğundakı və Silahlı Qüvvələrimizin inkişafındakı xidmətlərindən danışan Prezidentin köməkçisi onun şərəfli həyat yolunun veteranlarımızla yanaşı, gənclərimizə də nümunə olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, Tofiq Ağahüseynov sovet dövründə general-polkovnik rütbəsinə layiq görülən yeganə azərbaycanlıdır. Onun xidmətləri təkcə keçmiş SSRİ Silahlı Qüvvələri ilə bağlı deyil. General-polkovnik Tofiq Ağahüseynova müstəqil Azərbaycana xidmət etmək şərəfi də nəsib olub. İstedadlı hərbi xadim, vətənpərvər insan olan Tofiq Ağahüseynov zəngin bilik və təcrübəsini Azərbaycanın təhlükəsizliyinin təmin olunmasına, ölkəmizdə ordu quruculuğu və Silahlı Qüvvələrimizin inkişafına, eləcə də gənclərimizin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi işinə sərf edib.

Tofiq Ağahüseynovun respublikamızda veteran hərəkatının inkişafına, veteranların hüquq və mənafelərinin təminatına, onların sosial müdafiəsinin təmin olunmasına mühüm töhfələrini qeyd edən Əli Həsənov bildirib ki, onun xidmətləri istər sovet dövründə, istərsə də müstəqillik illərində daim yüksək qiymətləndirilib. Prezident İlham Əliyevin 2008-ci il 1 fevral və 2013-cü il 17 yanvar tarixli sərəncamları ilə “Şöhrət” və “Azərbaycan Bayrağı” ordenləri ilə təltif olunub. Dövlətimizin başçısı İlham Əliyevin yanvarın 31-də imzaladığı Sərəncamla isə Azərbaycanın ictimai həyatında fəal iştirakına və gənclərin vətənpərvərlik tərbiyəsindəki xidmətlərinə görə Tofiq Ağahüseynov “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilib.

Əli Həsənov 95 illik yubileyi və “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif olunması münasibətilə Tofiq Ağahüseynovu bir daha təbrik edərək, ona fəaliyyətində uğurlar arzulayıb.

Respublika Veteranlar Təşkilatının sədri Tofiq Ağahüseynov ölkəmizdə veteranlara göstərdiyi yüksək diqqət və qayğıya görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirərək deyib: “Doğrudan da mənim üçün xoşbəxt gündür. Mən “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilmişəm. Bu il veteranlar təşkilatımızın qarşısında çox böyük vəzifələr dayanır. İlk növbədə, biz ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyini, Azərbaycan Ordusunun 100 illiyini qeyd edəcəyik. Bu il həm də prezident seçkiləri keçiriləcək. Respublika Veteranlar Təşkilatının bütün üzvləri seçkilərdə fəal iştirak edəcək, Prezident İlham Əliyevin namizədliyini dəstəkləyəcəklər”.



AZƏRBAYCAN VETERANI

# Respublika Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynovun 95 illik yubileyi qeyd edilib

Azərbaycan Silahlı Qüvvələrinin formalaşmasında, inkişafında və milli hərbçi kadrların hazırlanmasında xüsusi xidmətləri olan, “Şöhrət” və “Azərbaycan Bayrağı” ordenləri ilə təltif edilmiş, Respublika Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynov ölkəmizin ictimai-siyasi həyatında, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsində fəal iştirak edir. Tofiq Ağahüseynov SSRİ dövründə bir sıra məsul hərbi vəzifələrdə işləyib. Azərbaycanın müstəqilliyinin bərpasından sonra hərb işinin inkişafında, ölkəmizin hərb tarixində mühüm xidmətləri olub. Ulu öndər Heydər Əliyevin hərbi məsələlər üzrə köməkçisi kimi, Tofiq Ağahüseynov bu sahənin inkişafında, Azərbaycanın müasir standartlara uyğun ordusunun yaradılmasında xüsusi xidmətlər göstərib.



Bu fikirlər Böyük Vətən müharibəsi veteranı, Respublika Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynovun anadan olmasının 95 illik yubileyi münasibətilə yanvarın 30-da Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında keçirilən tədbirdə səslənib.



Tədbiri giriş sözü ilə açan Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov bildirib ki, Prezident İlham Əliyev Böyük Vətən müharibəsi iştirakçılarına daim diqqət və qayğı ilə yanaşır, onların sosial problemlərinin həllinə çalışır. Böyük Vətən müharibəsinin iştirakçısı Tofiq Ağahüseynovun 95 illik yubileyinin qeyd olunması bu diqqət və qayğının bariz nümunəsidir.

C.Xəlilov general-polkovnik Tofiq Ağahüseynovun keçdiyi həyat yolundan, xidmət illərindən, hazırda gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsindəki fəaliyyətindən danışıb. Məlumat verilib ki, T.Ağahüseynov 1941-ci ildə Bakı Zenit Artilleriya Məktəbinə daxil olmaqla, həyatını 18 yaşından hərblə bağlayıb. Müharibə başlandıqdan sonra leytenant rütbəsi alan T.Ağahüseynov cəbhəyə yola düşüb. Birinci Belarus cəbhəsində taqım komandiri, əlahiddə zenit artilleriyası divizionu qərargah rəisinin köməkçisi kimi Visla-Oder və Berlin əməliyyatlarında iştirak edib. T.Ağahüseynov 1949-cu ildə Dzerjinski adına Hərbi Akademiyaya, ardınca Hərbi Artilleriya Akademiyasına daxil olub. Yüksək təhsilli mütəxəssis kimi Vətənə qayıdan gənc hərbçi dörd il Bakıda, Hövsandakı Hava Hücumundan Müdafiə polkuna komandirlik edib. Sonrakı xidmət yolu diviziya komandiri kimi Volqoqradda keçən Tofiq Ağahüseynov 1968-ci ildə general-mayor rütbəsi alıb və növbəti il Rostovda korpus komandiri təyin edilib. SSRİ kimi bir dövlətdə qeyri-rus millətindən olan bir şəxsin cəmi dörd il sonra general-leytenant rütbəsi alması onun hərb sənətini necə yüksək səviyyədə mənimsəməsinin nəticəsi olub. Tofiq Ağahüseynov 1975-ci ildə Bakı Dairəsi Hava Hücumundan Müdafiə Komandanının birinci müavini təyin edilib. Beş il sonra o, SSRİ Silahlı Qüvvələrində general-polkovnik rütbəsini alan ilk azərbaycanlı olur. Həmin vaxt ona Bakı Dairəsi Hava Hücumundan Müdafiə Komandanı vəzifəsi həvalə edilmişdi. 1982-ci ildə isə general-polkovnik Tofiq Ağahüseynov Varşava



Müqaviləsi dövlətlərinin birləşmiş silahlı qüvvələri baş komandanlığının Çexoslovakiyadakı nümayəndəsi təyin olunub.

Tədbirdə vurğulanıb ki, Tofiq Ağahüseynovun yüksək hərbi rütbələrə layiq görülməsində o zaman Azərbaycan SSR-in birinci katibi olan Heydər Əliyevin hərbi sahədə həyata keçirdiyi düşünülmüş siyasətin böyük rolu olub. Bu sahədə hazırkı generallarımızın mütləq əksəriyyətini yetirmiş C.Naxçıvanski adına Hərbi Liseyin adını qeyd etmək kifayətdir. General özü də onun formalaşmasında Heydər Əliyevin aparıcı rolu olduğunu dəfələrlə vurğulayıb. Ulu Öndər onun hərbi sahədəki bacarığını və xidmətlərini həmişə yüksək qiymətləndirib. Prezidentin 1997-ci il 17 aprel tarixli Sərəncamı ilə Tofiq Ağahüseynovu özünün hərbi məsələlər üzrə köməkçisi vəzifəsinə təyin etməsi və general-polkovnik rütbəsində Azərbaycan Milli Ordusu sıralarına bərpa etməsi məhz bunun nəticəsi idi.

Yüksək peşəkarlığı və nüfuzu nəzərə alınaraq T.Ağahüseynov üç çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı seçilib. Müharibə illərində və sonralar dövlətin ali mükafatlarına, orden və medallara layiq görülüb.

Bildirilib ki, T.Ağahüseynov Azərbaycan Respublikası Silahlı Qüvvələrinin formalaşmasında və hərbçi kadrların hazırlanmasında xüsusi xidmətlərinə görə Prezident İlham Əliyevin 2008-ci il 1 fevral və 2013-cü il 17 yanvar tarixli sərəncamları ilə



“Şöhrət” və “Azərbaycan Bayrağı” ordenləri ilə təltif edilib.

Diqqətə çatdırılıb ki, general-polkovnik Tofiq Ağahüseynov respublikamızda veteran hərəkətinin inkişafına, veteranların hüquq və mənafelərinin təminatına, onların sosial müdafiəsinə böyük töhfələr verib. Bu xidmətlərinə görə ölkə veteranları 2017-ci il sentyabrın 12-də onu Respublika Veteranlar Təşkilatının sədri seçiblər.

Tədbirdə çıxış edən müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev general-polkovnik Tofiq Ağahüseynovun Azərbaycan Silahlı Qüvvələrinin inkişafındakı və ordu quruculuğundakı xidmətlərindən danışıb. Qeyd edilib ki, Tofiq Ağahüseynov Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ordumuzun formalaşmasında fəal iştirak edib. O, ümummilli lider Heydər Əliyevin köməkçisi və silahdaşı olub. Müasir dövrdə ordumuzun gücü və potensialı gündən-gündən artır. Ölkəmizdə ordu quruculuğu işinin təməli məhz 90-cı illərin əvvəllərində qoyulub. Hazırda Respublika Veteranlar Təşkilatına rəhbərlik edən Tofiq Ağahüseynovun gənc nəslin düzgün istiqamətləndirilməsində rolu əvəzsizdir. Bu gün də Tofiq Ağahüseynov nümunəvi şərəfli yol və həyat təcrübəsini gənclərlə bölüşür və tövsiyələrini verir. Gənclərimiz veteranların həyat və təcrübəsindən daim faydalanmalıdırlar.





Kərim Vəliyev Müdafiə Nazirliyinin rəhbərliyi adından yubilyarı təbrik edib və ona cansağlığı arzulayıb.

Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin məsul əməkdaşı Rasim Mirzəyev, Daxili İşlər Nazirliyinin Veteranlar Şurasının sədri Fərhad Süleymanov, veteranlar və digərləri çıxış edərək yubilyarı təbrik edib, ona fəaliyyətində uğurlar diləyiblər. Onlar Tofiq Ağahüseynovun keçdiyi şərəfli həyat yolundan, peşəkar hərbçi kimi xidmətlərindən, həmçinin ictimai fəaliyyətindən bəhs ediblər.

Sonra müdafiə naziri general-polkovnik Zakir Həsənovun, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Azərbaycanın Milli Qəhrəmanı general-leytenant Mədət Quliyevin, daxili işlər nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun,



Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət Xidmətinin rəisi general-leytenant Arzu Rəhimovun, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Mehbalıyevin, gənclər və idman naziri Azad Rəhimovun, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun, Rusiya müdafiə nazirinin müavini Yuri Borisovun, Rusiya Federasiyasının Azərbaycandakı səfirliyinin hərbi attaşeliyi adından və başqa təşkilatlardan yubilyara ünvanlanmış, eləcə də müxtəlif ölkələrdən daxil olan təbrik məktubları oxunub, hədiyyələr təqdim edilib.

Sonda yubilyar çıxış edərək deyib: “Mən orduda 46 il xidmət etmişəm və mənim general kimi formalaşmağımda ümummilli lider Heydər Əliyev aparıcı rol oynayıb. Ulu Öndər həmişə mənim taleyimlə maraqlanır, hər cür kömək edirdi. Mən bunun üçün ona son dərəcə minnətdaram”.

T.Ağahüseynov tədbir iştirakçılarına və yubiley təbriklərinə görə dövlət orqanlarının rəhbərlərinə minnətdarlığını ifadə edib. O, Prezident İlham Əliyevin təşkilata, ümumən ölkə veteranlarına xüsusi diqqət və qayğı göstərdiyini vurğulayaraq, veteranların bundan sonra da göstərilən etimadı doğruldacaqlarına əminliyini bildirib. General-polkovnik gənclərin hərbi vətənpərvərlik və dövlətə sədaqət ruhunda tərbiyəsi üçün əlindən gələni əsirgəməyəcəyini söyləyib.

# Təhlükəsizliyimizin, stabitliyimizin qarantı İlham Əliyevdir

"Təhlükəsizliyimizin, stabitliyimizin qarantı İlham Əliyevdir. İlham Əliyevin yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi Azərbaycanın gələcəyi üçün çox vacibdir".

Bunu Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov aprel ayının 11-ə təyin olunan Prezident seçkilərinə münasibət bildirərkən deyib.

Polkovnik Cəlil Xəlilov Prezident İlham Əliyev cənablarının Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına göstərdiyi xüsusi diqqətdən də söz açıb:" Azərbaycan Müharibə və Silahlı Qüvvələr Veteranları Təşkilatına Prezident İlham Əliyev cənabları daim xüsusi diqqət bəsləyib. Möhtərəm Prezidentimiz çıxışlarında da daim deyir ki, veteranlar, şəhid ailələri dövlət orqanlarının diqqət və qayğısı ilə əhatə olunmalıdır. Biz bu diqqət, qayğını həmişə görmüşük. Bu gün dünya odun-alovun, terrorun, müharibələrin məngənəsində didilir. Azərbaycanda isə ictimai-siyasi sabitlikdir. Ölkədə iqtisadi yüksəliş ildən-ilə davam edir. İnsanlar asanlıqla işləyə, yaşaya, yarada bilirlər. Azərbaycan artıq regionun super dövlətinə çevrilib. Regionumuzda heç bir siyasi-iqtisadi layihə Azərbaycan dövlətinin iştirakı olmadan həyata keçirilə bilmir. Əlbəttə ki, bütün bu uğurlara məhz Prezidentimiz İlham Əliyev cənablarının yorulmadan apardığı qətiyyətli, prinsipial, əsaslı və müdrik siyasəti nəticəsində nail olunub".

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının iki aydan sonra Respublikada baş tutacaq Prezident seçkilərində aktiv iştirak edəcəyini vurğulayan polkovnik C. Xəlilov İlham Əliyevi dəstəkləyəcəklərini deyib.

"Azərbaycan Müharibə və Silahlı Qüvvələr Veteranları Təşkilatı Azərbaycan Respublikasının Prezidentliyinə İlham Əliyev cənablarının namizədliyini irəli sürəcək. Bilirik ki, həm ölkəmizin daxilində, həm də ki, xaricdə ölkəmizdəki siyasi sabitliyi pozmaq istəyən, iqtisadi cəhətdən ölkəmizi özlərindən asılı vəziyyətə salmaq istəyən məkrli qüvvələr var. Biz veteranlar imkan verməyəcəyik bu stabillik pozulsun. İlham Əliyev cənabları beynəlxalq səviyyədə qəbul edilən, hörmət bəslənən, intellektual, dünyanın siyasi fəlsəfəsini bütünlüklə dərk edən və dəqiq qərarları ilə həmişə bir addım öndə



olmağı bacaran liderdir. İlham Əliyev idarəetmə sisteminə çoxlu yeniliklər gətirib, bunlar da cəmiyyətin inkişafı üçün çox vacib məsələlərdir. Dünyada gedən proseslərə özünəxas yanaşması onu həmişə digər siyasi xadimlərdən ciddi olaraq fərqləndirə bilib. Azərbaycan Müharibə və Silahlı Qüvvələr Veteranları Təşkilatı olaraq biz möhtərəm prezidentimiz İlham Əliyev cənabları ilə fəxr edirik. Təhlükəsizliyimizin, stabilliyimizin qarantı İlham Əliyevdir. İlham Əliyevin yenidən Prezident olması Azərbaycanın gələcəyi üçün çox vacibdir"-deyə, polkovnik C.Xəlilov qeyd edib.

# 20 Yanvarı xatırlarkən...

Bu qeydləri uzun illər ərzində üzə çıxarmağa ehtiyac duymamışam. Bəlkə də ixtisasımdan irəli gələn bir vərdişdir. Başqalarının xidmətlərindən yazmağı üstun tutmuşam. Beləcə iştirakçısı olduğum, fəallıq göstərdiyim hadisələri indi nəinki təfərrüatı ilə, hətta bəzən ən mühüm məqamlarını xatırlamaq çətin olur. Bir çox detalları dəqiqləşdirmək üçün sənədləri, mətbu nəşrlərdə dərc edilmiş məqalələri, qeydləri yenidən ələk-vələk etməli oluram. Bəzi məqamlarını sizə çatdırmaq istədiyim hadisələrə gəlincə, onlar barəsində yazmaq qərarım bu gün müəyyən şəxslərin 1988-1990-cı illərdə Azərbaycanda baş verən hadisələrdən danışarkən nəinki obyektivlikdən uzaq olmaları, öz xidmətlərini hədsiz şişirtmələri, hətta tarixi faktları saxtalaşdırmaq cəhdləri ilə bağlıdır. Xalqın taleyüklü günlərində şübhəli məqsədlərlə, xalqa xor baxanların yanında olanların bu gün özlərinə gərək bildikləri avtobioqrafiya düzəltmək təşəbbüsləri də az dəhşətli deyil. Ancaq yaxşı ki, həmin günlərdən bizi uzun müddət ayırmır və insanların yaddaşı hələ itməyib.

1990-cı il 15 yanvarda SSRİ Ali Soveti Dağlıq Qarabağda, Azərbaycanın sərhədyanı rayonlarında və Gəncə şəhərlərində fövqəladə vəziyyət elan etdi. Azərbaycanın İranla sərhədyanı rayonlarında yaranmış gərgin vəziyyətlə əlaqədar və guya bir sıra yerlərdə hakimiyyətin zorla devrilməsi cəhdlərinin qarşısının alınması məqsədilə 16 yanvardan etibarən həmin ərazilərdə fövqəladə vəziyyət rejimi tətbiq edilməli idi. Bu qərar hadisələrin daha gərgin xarakter aldığı Bakıya şamil olunmamışdı. Bunun məkrli bir planın tərkib hissəsi olduğu, hazırlanan təcavüz qarşısında xalqın arxayın salınması məqsədi güddüyü sonra məlum oldu.

Bakıda SSRİ rəhbərliyinin birbaşa göstərişi və imperiya cəza qüvvələrinin iştirakı ilə törədilən 20 Yanvar qətliamı barədə çox deyilib və yazılıb. Ancaq həmin günlərdə Azərbaycanın rayonlarında baş verən hadisələr barədə az yazılıb. Əslində isə, Azərbaycanın milli-azadlıq hərəkatı yalnız Bakıda aparılmamış, bütün ölkəni əhatə etmişdir. Sovet hökumətinin mövcudluğu ərzində bu və ya digər formada davam etmiş həmin mübarizənin bir sıra şərəfli səhifələri müxtəlif bölgələrimizdə, rayon və kəndlərimizdə də yazılıb. Ümummübarizə tariximizin tədqiqi baxımından azacıq da olsa əhəmiyyət kəsb edəcəyini nəzərə alaraq, 20 Yanvar ərəfəsində Zəngilan rayonunda baş verən hadisələr dediklərimi sübut edir.

Həmin vaxt mən ADU-nun jurnalistika fakültəsini bitirib, təyinatla Zəngilan rayonunda çıxan "Kənd həyatı" qəzetində şöbə müdiri işləyirdim. Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinin qarşısının alınması, Azərbaycanın ərazi bütövlüyü, torpaqlarının erməni təcavüzündən qorunması zəminində başlanan və sonradan milli-azadlıq, müstəqillik uğrunda mübarizə mərhələsinə keçən milli hərəkatda Zəngilan fəalları da iştirak edirdilər. 1988-ci ilin sonlarından 1990-cı ilin yanvarınadək ən başlıca vəzifəmiz Zəngilanın Ermənistanla 158 kilometrlik sərhəd ərazisi üzrə əksər kəndlərdə yaradılmış postları möhkəmləndirmək, hər an gözlənilən təxribatların qarşısını almaq idi. Bu işdə rayonun ayrı-ayrı idarələrinin rəhbərləri də bizə lazım gəldikdə köməklik göstərir, xüsusilə ucqar kəndlərə getmək üçün nəqliyyatla təmin edirdilər. Postlarda ov silahları, əksəriyyəti isə əliyalın dayananların ərzağını isə yerli camaat təmin edirdi.



1988-ci ilin fevralından Ermənistanda antitürk, antiazərbaycan ovqatının daha da güclənməsi nəticəsində öz dədə-baba torpaqlarından zorla, ölüm təhdidi altında çıxarılmış azərbaycanlıların ilk dəstəsi Qafan rayonundan Zəngilana pənah gətirmişdi. Qaçqınların gəlişi, Ermənistanın digər ərazilərində deportasiyanın, daha doğrusu, etnik təmizləmənin davam etdirilməsi, Dağlıq Qarabağ ətrafında proseslərin Azərbaycan maraqlarına zidd məcrada inkişafı Zəngilanda da gərginliyi az qala günbəgün artırırdı. Həmçinin İranla sərhəddə mümkün təxribatların qarşısının alınması üçün tədbirlər görülürdü. Əlbəttə, bu daha çox xüsusi orqanların işi olsa da, əhalinin düzgün məlumatlandırılması lazım gəlirdi.

Bu işlər aparıldığı üçün İranla sərhəddə bir neçə dəfə əhali toplanıb, azsaylı etirazlar və mitinq keçirilsə də, sərhədin texniki vasitələrinin dağıdılmasına imkan verilməmişdi. Belə toplantılardan biri 1990-cı ilin 10 fevralında Türkmənçay müqaviləsinin 162-ci ildönümü günündə baş tutmuşdu. Bir çox yaxın ərazilərdə fövqəladə vəziyyətin davam etdiyi bir vaxtda insanları dövlət sərhədinə yığıb toplantı keçirmək heç də asan deyildi. Bunu təsdiq edən foto şəkillər də var.

Buna görə də rayonda 1990-cı il yanvar ayının 16-da fövqəladə vəziyyət tətbiq edilməsi, qadağan saatı qoyulması barədə qərar həm hərəkat fəallarını, həm də əhalinin böyük əksəriyyətini hiddətləndirmişdi. Başlıca təhlükənin Ermənistanla sərhəddən gözlənildiyi halda, diqqətin bilərəkdən İranla sərhədə yönəldilməsi bir məqsədə xidmət edirdi. Silahlı erməni yaraqlıları qarşısında əliyalın qalan xalq, başına od ələnsə, evində gülləboran olunsa da, axşam saat 21-dən səhər saat 6-yadək evində dustaq qalmalı idi. Daha acınaqlısı isə bir sıra yerli rəhbərlərin bu qərarın əhalinin xeyrinə olduğunu demələri və insanları buna inandırmaq cəhdləri idi. Əhalinin haqlı narazılığı və coşan hiddəti bizim mitinq qərarımızı qətiləşdirdi. Bütün xəbərdarlıqlara, hətta komendant saatının tətbiqinə cavabdeh qüvvələrin (onlar başqa millətlərin nümayəndələrindən ibarət hərbçilər idi) artıq rayona gətirildiyinə baxmayaraq, 17 yanvar saat 11-ə mərkəzi meydanda mitinq təyin edildi. Mitinq xalqın kükrəyən qəzəbinin həmin vaxtadək görünməmiş bir həddə nümayişi oldu. 34-35 min nəfər əhalisi olan bir rayonda 20 min nəfərə qədər insanın mitinqdə iştirakı rayon rəhbərliyini, yad hərbçiləri mübaliğəsiz deyim ki, hətta qorxuya salmışdı. Çıxış edənlərin tələbi eyni idi: heç bir əsas olmadan tətbiq olunan xüsusi vəziyyət və qadağan saatı ləğv edilməlidir. İnsanlar "biz təhlükəsizliyimizin təminatına yönəlmiş bütün cəhdləri alqışlayacağıq, bu qadağalar isə bizi təhlükə qarşısında qoyur" deməklə sanki sovet rejiminin məkrli niyyətlərinə işıq tuturdular. Mitinq iştirakçılarının qəti tələbi ilə sərhədyanı rayonlarda fövqəladə vəziyyətin tətbiqi barədə qərarın Zəngilanda icrası dayandırıldı. Bu barədə qərarı xüsusi komendantlığın rəisi A.Yakovlev meydanda elan etmək məcburiyyətində qaldı. Həmin hadisələr barədə rayon qəzetində səhəri gün 2 nəfər həmkarımla «Xalq birliyinin gecəsindən reportaj»ımız dərc edildi.

Rayonda ikinci çoxsaylı mitinqi 1990-cı il yanvar ayının 22-də yenə şəhərin mərkəzi meydanında təşkil etdik. Minlərlə insan mərkəzi hakimiyyətə, şəxsən M.Qorbaçova Bakıya cəza dəstələri yeridilməsinə görə öz etirazını bildirdi. Yüzlərlə şəxs soyqırıma etiraz əlaməti olaraq partiya biletlərindən imtina etdi, 400-dən çox kommunist biletini yandırdı. Həmin vaxt mən artıq 2 il idi ki, rayon partiya komitəsinin orqanı olan "Kənd həyatı" qəzeti və mətbənin birləşdiyi ilk partiya təşkilatının katibi idim. 20 Yanvar gününün səhəri ilk partiya təşkilatının iclasını çağırıb, üzvlərin ərizələri əsasında və mütləq əksəriyyətin səsi ilə ilk təşkilatın ləğvi haqqında qərar çıxardıq. Bu rayonda ilk partiya təşkilatının ləğv edildiyi yeganə qərar idi. Bundan hiddətlənən rayon partiya komitəsi 1990-cı ilin martında artıq Zəngilanda fövqəladə vəziyyətin tətbiqinə başlandığı dövrdə keçirdiyi plenumda mənim işdən çıxarılmağım barədə qərar verdi. Həmin qərarın əmək kitabçama yazılmasına baxmayaraq, mən işsiz qalmadım, əksinə əyalətdən Bakıya gələrək burada öz ixtisasım üzrə qəzetlərdən birində işə başladım.

20 Yanvar qətliamından sonra Bakıda və sərhədyanı rayonlarda fövqəladə vəziyyət rejimi daha sərt şəkildə həyata keçirildi. Yerlərdə yaradılmış xüsusi komendantlıqlar tərəfindən milli-azadlıq hərəkatının üzdə olan fəallarının həbsinə, bir sıra iştirakçılarının isə təqibinə start verildi. Zəngilandan olan fəallar iki aydan sonra həbs, təqib və təzyiqlərə məruz qaldılar...

***Lətif Şüküroğlu,***
***ehtiyatda olan polkovnik,***
***tarix üzrə fəlsəfə doktoru***

## Nizami rayonunda 20 Yanvar faciəsinin 28-ci ildönümü münasibətilə "Şərəf və qürur günümüz" adlı ədəbi-bədii tədbir keçirilib

19 yanvar 2017-ci il tarixində Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsili Mərkəzində 20 Yanvar faciəsinin 28-ci ildönümü münasibətilə "Şərəf və qürur günümüz" adlı ədəbi-bədii tədbir keçirilib.

İlk öncə Dövlət himni səsləndirilib, sonra 20 Yanvar faciəsi ilə bağlı videoçarx nümayiş etdirilib.

Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsili Mərkəzinin tarix müəllimi Aygün Hacıyeva çıxışında Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrinin şərəf və qürur günü kimi qeyd olunduğunu bildirib.

Tədbirdə mərkəzdə təhsil alan istedadlı gənclər Zəlimxan Yaqubun "Şəhid qanı", Cabir Novruzun "Sevin Azərbaycanı", Bəxtiyar Vahabzadənin "Şəhidlər" şeirlərini söyləyiblər.

Daha sonra, 20 yanvar faciəsi ilə əlaqədar ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

Sonda Rayon İcra Hakimiyyəti başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi İsa Hüseynov 20 yanvar hadisələri haqqında məlumat verərək, ümummilli liderimiz Heydər Əliyevin Moskvada xüsusi nəzarət altında ola-ola, özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq, hadisələrdən dərhal sonra, 1990-cı il yanvarın 21-də Vətən, xalq qarşısında





vətəndaşlıq və milli mövqelərini nümayiş etdirərək Moskvadakı Azərbaycan nümayəndəliyinə gəldiyini və SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edərək bəyanatla çıxış etdiyini vurğulayıb. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra 20 yanvar hadisələrinə siyasi qiymət verildiyini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Nizami rayon Veteranlar Təşkilatının sədri Yəhya Ağayev çıxışında gəncləri vətənpərvər olmağa çağırdı. Şəhidlərimizin əziz xatirəsini daim uca tutulacağına əminlik ifadə etdi.

# 83 yaşlı vətənpərvər veteran

Qərbi Azərbaycanın Göyçə mahalının Zod kəndində anadan olan Haqverdiyev Azadxan Vəli oğlu 1935-ci ildə Basarkeçər rayonunun azərbaycanlı oğludur. O, 1953-cü ildə yaşadığı tam orta məktəbi yaxşı qiymətlərlə bitirib. Həmin ildən kənd klubunun müdiri işləyib. 1961-ci ildə H.Zərdabi adına Gəncə Pedaqoji İnstitutuna daxil olub, 1967-ci ildə oranı bitirib. 1963-cü ildə müəllim işləməyə başlayıb. Azadxan gənc yaşlarından qəzetlərdə müxtəlif mövzularda məqalələrlə mövzular dərc etdirib, Rayon Bolluq uğrunda qəzetinin ştatdan kənar müxbiri işləyib. İşlədiyi müddətdə müəllim və şagird kollektivi olmaqla bərabər valideynlər arasında bacarıqlı müəllim kimi tanınıb. Azadxan müəllimin pedaqoji sahədə göstərdiyi əməyə görə Sovet təhsilinin 60 illiyi münasibətilə o, SSRİ Təhsil Nazirliyinin Fəxri fərmanı ilə təltif olunub. 1968-ci ildə isə SSRİ Ali Soveti tərəfindən əmək veteranı adı alıb. 1970-ci ildə Ermənistan Bilik cəmiyyətinə üzv qəbul edilib.



Azadxan müəllim həm də arxa cəbhə iştirakçısıdır. 1988-ci ildən Göygöl şəhər Tapdıq Əmiraslanov adına 2 saylı şəhər tam orta məktəbində təlim-tərbiyə işləri üzrə direktor müavini işləyib. Bu təhsil ocağında işlədiyi vaxtlar pedaqoji kollektiv və eləcə də rayon təşkilatları arasında yaxşı hörmət qazanıb. Göstərdiyi əmək fəaliyyətinə görə rayon icra hakimiyyəti tərəfindən müəllimlər günü münasibətilə fəxri fərmanla təltif olunub. İşlədiyi dövrdə məktəbdə YAP-ın təşkilat sədri işləyib. Gənclərin düzgün tərbiyə edilməsində və təşkilatda apardığı layiqli işinə görə Göygöl rayon YAP təşkilatı tərəfindən fəxri fərmana layiq görülüb. Müəllimlərin atestasiyasının keçirilməsində Ali dərəcəli müəllim adını alıb. 2015-ci ildə Həmrəylik günü münasibətilə N saylı hərbi hissədə hərbiçilərlə görüşündə əsgərlər qarşısında etdiyi çıxışına görə hərbi hissənin komandiri tərəfindən fəxri fərmanla təltif olunub.

A.Haqverdiyev mütəmadi olaraq rayonun bütün tədbirlərində fəal iştirak edir. Gənclərimizin vətənə xidmət etməyə yola salınması mərasimlərində onlarla görüşür və öz dəyərli məsləhətləri ilə çıxışlar edir. Eləcə də onun təşkilatçılığı ilə veteranlarla görüşlər keçirilir, lazımı məsələlər müzakirə edilir.

Salman Abbasov
Göygöl Rayon Veteranlar
Təşkilatının katibi

## Veteran müəllimlər Şəhidlər Xiyabanını ziyarət ediblər



Sumqayıt şəhər Təhsil şöbəsi veteranlar Şurasının təşəbbüsü ilə ümumtəhsil məktəblərinin fəal veteran müəllimlərindən bir qrupu hər il olduğu kimi , bu il də yanvar ayının 20-sində Bakıdakı müqəddəs məkan- Şəhidlər xiyabanına getmiş, qəhrəman vətən oğullarının məzarları üzərinə tər qərənfillər düzmüşlər.

Onların arasında 1 nömrəli tam orta məktəbdən Nəbi Cəfərov, Şaiq Camalov, 9 nömrəli tam orta məktəbdən Afiq Əskərov, 15 nömrəli orta məktəbdən Sabir Gülmalıyev , İlham Surxayev, 14 nömrəli orta məktəbdən Rafiq Əskərov, 22 nömrəli tam orta məktəbdən Çingiz İsrafilov, Bəhruz Eyibov, 31 nömrəli tam orta məktəbdən Əli Qəhrəmanov, Bəxtiyar Quliyev və başqaları olmuşdur.

Doğma Azərbaycanımızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan övladlarımızın xatirəsi yaddaşlarda əbədi yaşayacaqdır. Allah rəhmət eləsin.

***Məşdi Zeynalov***
***Sumayıt şəhər Təhsil Şöbəsi***
***Veteranlar Şurasının sədri***

## Vətənpərvər insan Ağagül Qasımov

Qasımov Ağagül Əriağa oğlu 5 aprel 1944-cü ildə Astara rayonunun Şahağacı kəndində anadan olmuşdur. 1958-ci ildə Şahağacı kənd 7 illik məktəbi, 1961-ci ildə isə Şiyəkəran kənd orta məktəbini bitirmişdir. 1963-66 cı illərdə sovet ordu sıralarında xidmət etmişdir. 1971-ci ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakultəsini bitirdikdən sonra bir müddət ''Sovet Kəndi'' qəzetində, sonra isə rayona qayıtmış "Sovet Astarası'' qəzetində baş ədəbi işçi, şöbə müdiri vəzifələrində işləmişdir.

1973-1975-ci illərdə Bakı Ali Partiya məktəbində oxumuşdur. 1975-1976-cı illərdə Astara rayon partiya komitəsinin 3-cü katibi, 1981-1987-ci illərdə rayon XDS İK-nin sədri, 1988-90-cı illərdə Şahağacı sovxozunun direktoru, 1991-1999-cu ilə kimi Astara rayon Əmək və Məşğulluq mərkəzinin direktoru, 1999-2006-cı ilə kimi Astara rayon icra hakimiyyətində baş məsləhətçi işləmişdir. Ömrünün zəhmətlə dolu enişli-yoxuşlu yolunu 2006-cı ildə pensiyaya çıxmaqla başa vurmağı məsləhət bilmişdir. O, işlədiyi dövrdə el üçün, oba üçün, xalq üçün işləməkdən həzz alırdı. 1989-cu ildə SSRİ jurnalistlər birliyinin üzvü seçilmişdir. 2006-cı ildə "Çiçək dolu səhifələr'' adlı şeirlər kitabı çap edilib. O, "əməkdə fərqlənməyə görə medalı'' "kommunist əməyi zərbəçisi" fəxri döş nişanı "sərhədin qorunmasına görə



II dərəcəli'' döş nişanı ilə təltif olunub.

Ağagül Qasımov gənc zabit, əsgər və müdavimlərlə yanaşı əhalinin vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi ilə əlaqədar keçirilən tədbirlərdə fəal iştirak edir. Çağırışçı gənclərin ordu sıralarına gedərkən onların yola salma mərasimlərində vətənə bağlılığı, vətəni sevmək, müdafiə etmək, hərbi texnikanın sirlərini öyrənməyi tövsiyə edir.

O, hər hansı bir vəzifədə işləyərkən vəzifə məsuliyyəti xalqa xidmət, insanlara hörmət, diqqət, qayğı düşüncələrini ön plana salmışdır. Ailəlidir. 3 övladı 6 nəvəsi var. Ona cansağlığı, uzun ömür və ailə səadəti arzulayırlıq.

*Rafiq Əliyev, Astara Rayon Veteranlar*
*Təşkilatının sədri*

## Sumqayıt şəhər Mərkəzi Uşaq Kitabxanasında Milli Qəhrəman Mübariz İbrahimovun 30 illiyi münasibətilə təşkil edilmiş kitab təqdimatı haqqında

08.02.2018-ci il tarixində Mərkəzi Uşaq Kitabxanasında Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun anadan olmasının 30 illiyi ilə əlaqədar 16 saylı tam orta məktəbin şagirdlərinin iştirakı ilə Fəridə Ləmanın "Təəssüb" kitabının təqdimatı keçirilmişdir. Tədbir şəhidlərin ruhunun bir dəqiqəlik sükutla yad edilməsi ilə başlandı. Sonra kitabxananın multimedia mütəxəssisi Səbinə Qasımova Mübariz İbrahimovun qısa, lakin qəhrəmanlıqla dolu mənalı ömür yolu, valideynləri, cəbhə yoldaşları və xalqı ilə son təması olan vida məktubu, Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında müstəsna xidmətinə və göstərdiyi rəşadətə görə Azərbaycan Prezidenti İlham Əliyevin 22 iyul 2010-cu il tarixli Sərəncamı ilə təltif olunduğu (ölümündən sonra) Azərbaycanın Milli Qəhrəmanı adının verilməsi, xatirəsinin əbədiləşdirilməsi sahəsində görülən işlər haqqında məktəblilərə ətraflı məlumat verdi. Daha sonra o, iştirakçılara F.Ləmanın ömrünün 22-ci baharında şəhidlik zirvəsinə ucalan Mübariz İbrahimova həsr etdiyi "Təəssüb" kitabı haqqında ətraflı məlumat verdi Bildirdi ki, vətəndaş sevgisi ilə qələmə alınmış poema M.İbrahimovun uşaqlığından tutmuş, son döyüş yoluna qədər lakonik, düşündürücü deyimlərlə qəhrəmanın cəsurluğuna, ölməzliyinə, əbədiyaşarlığına poetik rəng qatmışdır. Səbinə Qasımova poemadan parçalar oxumaqla iştirakçılarda kitab haqqında daha dolğun fikir formalaşdırdı.

Tədbir 16 nömrəli məktəbin 4Ç sinif şagirdləri olan Elruzə Nəbiyeva, Şövqiyyə Quliyeva, Kənan Əkbərov, Zahid Məmmədli, Rəşad İbrahimov, Səma Seyidli, Emin Osman və digərlərinin cəsurluq, igidlik, mərdlik nümayiş etdirərək Azərbaycan əsgərinin qəhrəmanlıq rəmzinə çevrilmiş Mübariz İbrahimov haqqında söylədiyi şeirlər və nümayiş etdirilən video filmlə davam etdi.

Son söz olaraq çıxış edən 16 saylı tam orta məktəbin kitabxana müdiri Südakət Əliyeva tədbirin təşkilinə və əhəmiyyətinə görə kitabxana əməkdaşlarına öz minnətdarlığını bildirdi və qeyd etdi ki, bu gün ölkəmizin qorunmasında, saxlanılmasında, müstəqil dövlət kimi yaşamasında və inkişaf etməsində Milli Qəhrəmanlarımızın böyük rolu olmuşdur. Məhz bu səbəbdən də hər bir azərbaycanlı onları öyrənməli, tanımalı, sevməli, onların xidmətlərini daim xatırlamalı, qiymətləndirməli, tanıtdırmalı, bugünkü və gələcək nəsillərimizə örnək olan ömürlərindən dərs almalı, onlara minnətdar olmalıdır! Biz də inanırıq ki, onların müqəddəs ruhları Allah dərgahında mübarək adları ilə xalqımızın qəlbində əbədi yaşayacaq.

*Nailə Tağıyeva- Mərkəzi Uşaq*
*Kitabxanasının işçisi*

AZƏRBAYCAN VETERANI

# 20 YANVAR - ŞANLI TARİXİMİZ...

183 №-li tam orta məktəbdə 20 yanvar günü ilə əlaqədar tədbir keçirilmişdir. Ölkəmizin hər yerində olduğu kimi183 №-li tam orta məktəbdə də adi günlərdən xeyli fərqli ab-hava var idi. Məktəbin foyesində, akt zalında, kitabxanada, sinif otaqlarında müstəqilliyimiz yolunda yazılmış şanlı tariximizi - 20 Yanvar şəhidlərinin anılması münasibətilə cürbəcür stendlər, güşələr, plakat ve rəsmlər nümayiş olunurdu. İlk dərslər xalqımızın qürur mənbəyi olan şəhidlərimizə həsr edilmişdi. Şəhidlərimizin ruhuna min bir sevgi ve ehtiramla hazırlanmış məktəb tədbirində müəllim və şagirdlərlə yanaşı Respublika Veteranlar Təşkilatının Gənclərin hərbi vətənpərvərlik tərbiyəsi şöbəsinin müdiri ehtiyatda olan polkovnik Adil Haqverdiyev və Xəzər rayon Veteranlar Təşkilatının sədri Nüsrət İbrahimov və valideynlər iştirak edirdilər. Məktəbin ədəbiyyat müəllimi Günay Hacızadənin rəhbərliyi ilə şagirdlərin təqdim etdiyi bədii kompozisiya tədbir iştirakçılarında dərin təəssürat yaratmış oldu. 20 Yanvar şəhidlərinin əziz xatirəsinə həsr edilmiş filmin nümayişi də şagirdlərin qəlbində unudulmaz izlər buraxdı. Məktəbin direktoru R.Abbasova şagirdlərə və müəllimlərə təşəkkür edərək sözü qonaqlara verdi. Veteranlar- Adil Haqverdiyev və Nüsrət İbrahimov dəhşətli gecədə paytaxtımızın küçələrində keçmiş sovet ordusu tərəfindən törədilən qanlı terrorun canlı şahidi olduqlarını söyləyərək şagirdlərə öz ürək sözlərini bildirdilər. Onlara xalqımızın tarixini dərindən öyrənməyi tövsiyə etdilər. Müstəqil Azərbaycanımızın gələcəyi olan şagirdlərə tariximizdən ibrət dərsi almağı, şəhidlərimizin müqəddəs ruhları qarşısında öz gələcək fəaliyyətləri ilə cavab verməyi onlara tövsiyə etdilər.





# MÜHARİBƏNİN ALOVLU QASIRĞASI İÇİNDƏN

*əvvəli ötən sayımızda*

Əsgərlərin qarşısını alan, ölüm atəşi saçan bu pulemyot yuvasını mütləq məhv etmək lazım idi. Əsgərlər qəflətən iki nəfərin ilanvari hərəkətlərlə bu binaya yaxınlaşdıqlarını gördülər. Onlardan biri - hündür boy döyüşçünün küreyində ağır məftil çarxı vardı, yanındakı tibb işçisi leytenantın çiynindən sanitar çantası asılmışdı, başında isə tünd parıltı verən kaska var idi.

Onlar partlayışdan yerə əyilmiş işıq dirəyinin yanında yerə çökdülər. Döyüşçü cəld telefon şünurunu bərkidib başı ilə yerə uzanmış zabitə işarə etdi və dovşan kimi o yan-bu yana sıçrayaraq küçənin o biri tərəfinə qaçdı. O, məhz hitlerçilərin səylə atəşə tutduqları yerə qaçırdı.

Pulemyot ara vermədən titrəyib hürürdü. Güllələr daşları parçalayıb fontan yaradır, bu daş qırıntıları da səs-küylə küçəyə səpələnirdi. Əsgər heç beş addım da getməyib yıxıldı, o, əvvəl dizi üstə yerə çökdü, sonra əllərini sinəsinə sıxaraq küçədəki daşların üstünə sərilib hərəkətsiz halda dondu. Ağır məftil çarxı əsgərin küreyindən düşüb cingildədi.

Binadan bir azca aralıda mərmi partladı və göyə saysız- hesabsız qəlpələr sıçradı. Bu boz daş parçaları çarxın üstünə düşüb onu baraban tək döyəclədi. Elə bu anda bu döyüş səhnəsini izləyən sanitar taqımının komandiri Məmmədovun qulağına inilti səsi gəldi: əsgər sağ idi.

Döyüşçülər onun kərtənkələ kimi necə cəld hərəkətlə nə vaxt həmin binaya tərəf süründüyünü görmədilər. Orada, divarın dibində tibb leytenantı çox kiçik və cılız görünürdü.

Günəş qatı duman arasından ani olaraq görünüb pəncərələrin şüşələrini qızıl rənglə işıqlandırırdı və bir anlıq, yalnız bircə an Məmmədov həqiqəti unutdu: yaxınlıqdakı qızğın döyüşü, həlak olan insanları unutdu, şəhər isə əhalisi ilə birgə azadlıq gözləyirdi: Mirzəcan bu günəş şüalarını görüb həyatın davam etdiyini anladı...

Külək yenidən insan naləsini ətrafa yaydı. Yaralı tərpəndi. Məmmədovun ürəyindən bir soyuqluq keçdi: o, qorxdu, ona elə gəldi ki, faşistlər də bunu gördü və indi bu yaralı əsgər nişangaha çevriləcək, ona atəş qatarı açılacaq və hər şey məhv olacaq. Döyüşçülər bu iki nəfər hərbiçini müşayiət edərək Məmmədovun da onlar kimi həyəcan keçirdiyini düşünürdülər. Mirzəcanın bədəni donmuşdu. O, gözlərini qırpmadan yaralının uzandığı tərəfə baxırdı.

Qatı tüstü topaları şəhər üzərinə qalxıb ağır bulud tək evlərin üstündən asılırdı. Birdən tibb leytenantı binanın ağ divarından aralanıb yerə əyilə-əyilə yaralıya tərəf qaçdı. O dəqiqə də bizimkilər tərəfdən düşmənə atəş açıldı. Güllələr qarşısına çıxan hər şeyi vurub dağıdırdı: şüşələr cingildəyir, pəncərə karnizlərinin malaları parça-parça olub yerə tökülürdü. Sanitar taqımının komandiri yaralıya çatıb dizi üstə qarşısında oturdu, onun əlini boynuna saldı və ağırlıq altında aramla küçədən keçib təhlükəsiz yer axtardı. Yenə də ətrafa daş yağışı səpələnməyə başladı. Salamat qalmış pulemyot Məmmədov tərəfi atəşə tutdu. Döyüşçülərimiz bütün silahları ilə düşmənin pulemyotuna zərbə endirib onun sahibini susdurdular və Mirzəcana təhlükəsiz yerdə gizlənib yaralıya yardım göstərməsi üçün şərait yaratdılar. Əsgər sağ qaldı, Məmmədovun gözləri sevincdən parıldayırdı, o, xoşbəxt bir gülüşlə gülümsəyib qələbəsinə sevinirdi. Yaralını tibb sanitar batalyonuna çatdırdılar. Müalicə alandan sonra o, yenə də döyüşə atıldı.

1944-cü ilin ikinci yarısında sovet ordusu faşistləri Ruminiyadan, Bolqarıstandan, Polşadan qovub, Yuqoslaviya, Çexoslovakiya, Macarıstan torpaqlarına ayaq basdı...

Mirzəcan Məmmədovun xidmət etdiyi diviziya Şərqi Prussiya sərhədlərinin lap yaxınlığında idi. O, öz sanitar taqımı ilə alman topaqlarına ilk daxil olanlardan biri oldu. Almaniyanın da meşələri, çölləri, çaylan, ağacları Litvada, Latviyada, Estoniyada, Belorusiyada olduğu kimi idi. Həm orada, həm də burada eynilə ağcaqayın da qızarırdı, çayın suyu da eynilə parıldayıb axırdı. Yamyaşıl otlaq haradasa gözəgörünməz yerdə ikiyə bölünürdü. Heç yerdə sərhəd dirəkləri, işarələri görünmürdü, onları almanlar özləri çıxartmışdılar.

Ordularımız dayanmadan nifrət etdikləri bu torpağı atəşə tuturdular. Axı 1941-ci ildə faşistlər məhz buradan Sovet İttifaqına hücuma keçmişdilər.

Artilleriyanın top hazırlığı başladı və almanlar tərəfdən kötüklər, beton qırıqları, kökündən çıxmış ağaclar, maşın, top təkərləri ətrafa səpələnməyə başladı. Əsgərlər tez-tez başlarını səngərdən çıxarıb «İrəli» əmrini səbirsizliklə gözləyirdilər.

- Hə, indi möhkəm dayan faşist Almaniyası!

Hücuma keçənlər qarşılarındakı müdafiə tikililərini yerlə-yeksan etdilər. Buna baxmayaraq hitlerçilər Sovet Ordusunun birinci həmləsinə davam gətirdi, alaylarımız cəmi yeddi-on kilometr irəliləyə bildilər. Böyük itkilər oldu. Lakin sonralar bu hücumlar günügündən güclənməyə başladı. Bu həmlələr 1945-ci ilin aprelində daha da gücləndi.

Güclü müdafiə olunan İnsterburq xəttindən sonra qəzetlərdə Ali Baş Komandanm yeni əmri çap olundu:

"Bu gün yanvarın 22-də 3-cü Belorusiya cəbhəsinin ordusu Şərqi Prussiyanın Keniqsberq yolu üzərində yerləşən ən vacib müdafiə rayonu və əsas əlaqə yolları qovşağı yerləşən İnsterburq şəhərini ələ keçirib..."

Bu vaxtadək Məmmədov heç bir şəhərin belə iri tonqaltək yandığını görməmişdi. Sonra əmr, əmr ardınca çıxıb bizim ordunun qələbələri haqqında məlumatlar verildi. Və nəhayət qələbəmiz də gəldi. Prussiyanın ən böyük şəhəri olan Keniqsberq aprelin 2-də alındı. Keniqsberq (indiki Kaliningrad) alındıqdan sonra bizim 169- cu qırmızıbayraqlı Roqaçov diviziyasını 3-cü Belorus cəbhəsinin sərəncamına verdilər. Bizim diviziyamız Oder çayının şərq sahilindən keçib çətin vuruşmalarda qərb sahilində Frankfurt şəhərini böyük itkilər verərək aldıq. Bu döyüşlərdə mənim taqımımdan Astara rayonundan olan Bağırov familiyalı sanitarımı itirdim. Diviziyamız faşizmin mərkəzi olan Berlin şəhərinə doğru ağır itkilərlə irəliləyirdi. Nəhayət, mayın 2-də bizim diviziyamız Berlinin alınmasında iştirak etdi. Berlini alan zaman ac qalmış yüz minlərlə şəhər camaatı evlərdən küçələrə çıxıb bizi qarşılayıb bizdən çörək istəyirdilər və xorla qışqırırdılar: "Xleba, Xleba...". Baxmayaraq ki, düşmən idik, lakin bizim çörəyimiz olduğundan onların üstünə çörək buxankası, ət tuşonqası tullayırdıq. Onların əksəriyyəti yaşlı kişilər və qadınlar idi. Hər buxankanı və tuşonkanı onların üzərinə tullayanda uşaq kimi tullanan qida üzərinə yerə sərilirdilər. Burada mənim yadıma mərhum və istedadlı böyük şairimiz Səməd Vurğunun «Rot front» şeiri düşdü.....

***A.Qritçenko***
***Tərcümə Ş.Cəfərov***

**"Azərbaycan Veteranı" qəzetinin elektron ünvanına (az.veteran@mail.ru) məqalələrinizi göndərməklə bizimlə əməkdaşlıq edə bilərsiniz. Qeyd edək ki, "Azərbaycan Veteranı" qəzetində dərc olunan məqalələrdəki faktlara və məlumatlara görə müəllif məsuliyyət daşıyır. Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**

**Əziz oxucular, "Azərbaycan Veteranı" qəzeti üçün abunə yazıla bilərsiniz!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Azərbaycan Beynəlxalq Bankı ASC-nin Səbail filalı**
**Hesab nömrəsi AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN, 1 illik abunə haqqı - 15 AZN**
**Qeyd: Əziz və hörmətli oxucular, "Azərbaycan Veteranı" qəzetinə abunə olmaq üçün "Azərmətbuatyayımı" ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**
**Əlaqə telefonları: (012) 440- 21-08 (012) 497- 63-58 (111)**

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*

*Məsul katib*
*Şəhla QARAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:*** *Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:***
*1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:*** *Bakı şəhəri, Nərimanov rayonu, Kaverоçkin küçəsi, 34*
***Əlaqə telefonu:*** ***012 440-21-08***
***e-mail:*** *az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi*** *- 3486*
***Dövlət qeydiyyat tarixi*** *- 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 60 qəpik*
*Tiraj: 1250*